Kredo 2021.- 10 fevral.- S.4;5.



*Nəcməddin MÜRVƏTOV*

## 20 yanvar

Seçib ayırmırdıq onda düşməni,
Sanki boğulmuşdu içimizdə hiss.
Tuşlayıb atanlar bizə gülləni,
Dedilər-"bax, bizik"-bunu düz səlis.

Ayıldıq elə bil yuxudan o gün,
Anladıq həqiqət olan nə, yalan.
Ağıl boş inama gəlmişdi üstün,
Bəlliydi əmr edən, həm qırğın salan.

Yudu öz dərkindən şəhid qanıyla,
Millət yetmiş illik bütün his-pası.
Ruhların "20 Yanvar" danıyla,
Başlandı qandaldan xilas davası.

Əyilib sınmadı, bütövləşdi tam,
Qoydu ortalığa əzmi, qüdrəti.
İstəyi yağını etmək idi ram,
Sərtdi bu məramda xalq qətiyyəti.

Kinlə silahlandı, nifrətlə təkcə,
Ehtiyac olmadı topa, mərmiyə.
Çevrildi axınla hüdudsuz gücə,
Önündə bədxahlıq çökə, təntiyə.

Verdi azadlığa qəti qərarı,
"Öldü var, döndü yox", - dedi bu işdə.
Yıxıla sovetin çürük divarı,
Çat verdi yıxıla çox, tərpənişdə.

Bəs oldu, yetərli 20 Yanvar,
Bilək dostumuz kim, düşmənimiz kim.
O gün zəfərlərə açıldı yollar,
Oldu hürr sevgisi qəlblərə hakim.

16.01.2021

## Öymə məni

Məni də o qədər bəyənməyən var,
Barmaq silkələyib söyənlər belə.
Yaxşıma hesabsız korlar, olan kar,
Xırda qüsurumu salanlar dilə.

Çox da darılmıram harda kim nəsə
Barəmdə söyləyə hərzə, havayı.
Girmirəm söz-sovla nadanla bəhsə,
Ruhuma hakim yox haqdan savayı.

Bax gör kim ayırır yaxşı-yamanı,
Düşürmü aqillər, müdriklər yada.
Hikmət demişləri tanıyan hanı,
Sanki olmayıblar fani dünyada.

Ağlı yox meydanda, keçir zor gücü,
Keçir yekələrin hökmü, fərmanı.
Anlamır, canını alar bir cücü,
Tanrı qərar versə həmin zamanı.

Sənsə tərifləmə, öymə çox məni,
Düşməyim xislətdən bədlər yadına.
Düşün ki, onlara çox çətin yəni,
Söz qoşa barəmdə, nağıl ardına.

03.01.2021

## Millətim

Naxələfdir ətrafın, etməməklə zənn, güman,
Saflığından düşmüsən bəd oyuna hər zaman,
Ədalətdir diləyin, yox əməlin heç yaman.
Etibarın hüdudsuz, dəqiq-dürüst ülfətin,
Haqq söyləyən, haqq deyən, mənim şanlı millətim.

Əyilmədin, sınmadın məkr, fitnə önündə,
Uğur, zəfər aradın hər darmacal günündə,
Tor, tələlər quruldu ətrafında, yönündə.
Qalib çıxdın onda da, xilaskarın qeyrətin,
Haqq söyləyən, haqq deyən, mənim şanlı millətim.

Min bir hədyan qoşublar şan-şərəfli adına,
Dönük çıxıb naxələf, yetişdiyin dadına,
Eh, nə deyim bilmirəm, yaddaşına, yadına.
Cavabınsa apaydın:"Neynim, budur xislətim",
Haqq söyləyən, haqq deyən, mənim şanlı millətim.

Sənə həsəd aparır saysız yekə ölkələr,
Bax, bundandır daimi başın üstə kölgələr,
Torpağından ayrılmış, qoparılmış bölgələr.
Oğurlanıb, talanıb çox-çox illər sərvətin,
Haqq söyləyən, haqq deyən, mənim şanlı millətim.

Bir az, nə olar, ciddi ol, al bunları nəzərə,
Qorxuludur, təşvişli, dünyadakı mənzərə,
Çaşıb insanlıq, uyub mala, mülkə, dürr-zərə.
Səfərbər ol hərbə də, yenilməzdir qüdrətin,
Haqq söyləyən, haqq deyən, mənim şanlı millətim.

09.01.2021

## Bəlkə

Adamdır, insanlıq adına ləkə
Sanki bu məxluqun yoxdur ürəyi.
Tanrı bu fikirlə beləni bəlkə
Yaradıb, yaxşıya verək dəyəri.

Ondan gendə durur, aralı hər kəs,
Dinləmək istəmir bir sözünü də.
Axı tərsə düz af, düzlərəsə tərs
Qoyur, qırpmamaqla heç gözünü də.

Çılpaq bədxahlığı ortada aşkar,
Quduztək dalayır ətrafı hər an.
Ağrı-acı yaymaq işi, dərd, qubar,
Fikri sevinəni etməkdir peşman.

Bədnam ad qazanıb yamanlığıyla,
Varmır zərrə qədər bunun fərqinə.
Aqil, müdriklərə rişxənd, lağıyla
Tanınmış, nadandan deyir fərqi nə?

Qəlbinin qarası çıxıb üzünə,
İlanlar qaynaşır bəbəklərində.
Yox ki, bir addımı ola düz yönə,
Yamanlıq istəyi çox qədərində.

Yaxşı ki, belələr nadir nüsxə, tək,
Elə də çox deyil, şükür Allaha.
Yoxsa az olmazdı, yox ki şübhə, şəkk,
Öldürən onları, batan günaha.

Adamdır, insanlıq adına ləkə,
Sanki bu məxluqun yoxdur ürəyi.
Tanrı bu fikirlə beləni bəlkə
Yaradıb, yaxşıya verək dəyəri.

15.01.2021

## Azərbaycan bayrağı

Sən savaşdan doğulmusan sənə zəfər yaraşır,
Rənglərində müstəqillik, islam, türklük qarışır,
Ay-ulduzun hürriyyətin göylərində sayrışır.
Aləmlərə çatdırırsan millətimdən sorağı,
Zirvələrdə dalğalanan Azərbaycan bayrağı.

Ox olmusan yağıların gözlərinə hər zaman,
Uğurları göstərmisən köksləriní yandıran,
Yaşatmısan məğlubluğu fəryad edə, dad, aman .
Sevinmisən sarsılanda namərdlərin dayağı,
Zirvələrdə dalğalanan Azərbaycan bayrağı.

Bəyan edib həqiqəti göstərmisən dünyaya
Haqq demisən çöküb dizə yalan, böhtan, şər, riya.
Barəndə tərs düşünənlər qanıb, uyub xülyaya,
Yaşamısan tarixində saysız gələn sınağı,
Zirvələrdə dalğalanan Azərbaycan bayrağı.